AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — *№ 6 (1508), 15 - 21 fevral 2022-ci il* — *Qəzet 2001-ci ildən çıxır.*



## Fərid Qayıbov Pekində Azərbaycanı təmsil edən idmançılarla görüşüb

Fevralın 14-də gənclər və idman naziri Fərid Qayıbov Pekin-2022 Qış Olimpiya Oyunlarında Azərbaycanı təmsil edən idmançılar - Vladimir Litvintsev və Yekaterina Ryabova ilə görüşüb.

Görüşdə Qış Olimpiya Oyunlarında Azərbaycanın şef de-missionu Anar Bağırov, nümayəndə heyətinin üzvü Ceyhun Rəhmanov da iştirak edib.

Fərid Qayıbov bu gün qısa proqramda çıxış edəcək Y.Ryabovaya uğurlar arzulayıb.



## Qadın təmsilçimiz bu gün olimpiadada mübarizəyə başlayır

Bu gün Pekin-2022 Qış Olimpiya Oyunlarında ölkəmizi təmsil edən fiqurlu konkisürənimiz Yekaterina Ryabova mübarizəyə başlayacaq. Təmsilçimiz püşkə əsasən buz üzərinə 24-cü sırada çıxacaq. Siyahıda ümumilikdə 30 idmançı yer alıb. 19 yaşlı konkisürənimiz qadınlar arasında qısa proqramla çıxışda ən yaxşı 24 iştirakçı arasına düşə bilsə, fevralın 17-də keçiriləcək final mərhələsinə vəsiqə qazanacaq. Həmin gün idmançılar sərbəst proqramla mübarizə aparacaqlar. Yarış "Capital Indoor Stadium"da keçiriləcək.

### *Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarında medal qazanan ölkələr*

| | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. Norveç | 9 | 5 | 7 | 21 |
| 2. Almaniya | 8 | 5 | 2 | 15 |
| 3. ABŞ | 7 | 6 | 3 | 16 |
| 4. Niderland | 6 | 4 | 2 | 12 |
| 5. Avstriya | 5 | 6 | 4 | 15 |
| 6. İsveç | 5 | 3 | 3 | 11 |
| 7. Çin | 5 | 3 | 2 | 10 |
| 8. ROK | 4 | 6 | 8 | 18 |
| 9. Fransa | 3 | 6 | 2 | 11 |
| 10. İsveçrə | 3 | 0 | 5 | 8 |
| 11. İtaliya | 2 | 5 | 4 | 11 |
| 12. Yaponiya | 2 | 4 | 5 | 11 |
| 13. Sloveniya | 2 | 3 | 2 | 7 |
| 14. Kanada | 1 | 4 | 10 | 15 |
| 15. C.Koreya | 1 | 3 | 1 | 5 |
| 16. Avstraliya | 1 | 2 | 1 | 4 |
| 17. Finlandiya | 1 | 1 | 2 | 4 |
| 18. Macarıstan | 1 | 0 | 2 | 3 |
| 19. Çexiya | 1 | 0 | 1 | 2 |
| 20-21. Yeni Zelandiya | 1 | 0 | 0 | 1 |
| 20-21. Slovakiya | 1 | 0 | 0 | 1 |
| 22. Belarus | 0 | 2 | 0 | 2 |
| 23. İspaniya | 0 | 1 | 0 | 1 |
| 24-26. Belçika | 0 | 0 | 1 | 1 |
| 24-26. Latviya | 0 | 0 | 1 | 1 |
| 24-26. Polşa | 0 | 0 | 1 | 1 |




## Vladimir Litvintsev: "Ayağımdakı zədə məni narahat edirdi"

Pekin-2022 Qış Olimpiya Oyunlarında ölkəmizi təmsil edən fiqurlu konkisürənimiz Vladimir Litvintsev kişi idmançıların fərdi yarışlarda mübarizə aparıb. Hakimlər idmançımızın çıxışını 155.04 xalla qiymətləndiriblər. Beləliklə, iki proqramın cəmində 239,19 xal toplayaran fiqurlu konkisürənimiz yarışı 18-ci pillədə başa vurub. Yarışlardan sonra Vladimir Litvintsev çıxışı haqda təəssüratlarını bölüşüb. O, yarışa zədəli olduğu üçün ağrıkəsicilərlə çıxdığını bildirib:

"Çıxışımdan çox razıyam. İcra etdiyim hərəkətlərdə heç bir səhvlərə yol vermədim. Amma bu hərəkətləri yüksək səviyyədə yerinə yetirmək üçün daha çox məşq etmək lazımdır.

Ayağımdakı zədə məni narahat edirdi. Buna görə də çıxışımdan əvvəl ağrıkəsicidən istifadə etdim. Məhz bu səbəbdən də ağrılar elə də hiss olunmadı. Çalışacağam ki, bu zədəmi tamamilə bərpa edim".

V.Litvintsev həmçinin fevralın 15-də Pekin-2022-də çıxış edəcək digər təmsilçimiz Yekaterina Ryabovaya da uğurlar arzulayıb. "İndi növbə Yekaterinanındır. Ona uğurlar arzulayıram. İnanıram ki, o, öz möhtəşəm çıxışı ilə hər birimizi sevindirəcək", - deyə Vladimir Litvintsev bildirib.






## Norveç idmançıları Pekin-2022-də rekordları sıralayırlar

Səh. 4-5

## *Batutçumuz dünya kuboku yarışında gümüş medal qazanıb*

Səh. 2

## Azərbaycan Qran-Prisinin başlanma saatı müəyyənləşib

Səh. 3

## *Azərbaycan Boks Federasiyasına yeni prezident seçilib*

Səh. 2




# Azərbaycan Boks Federasiyasına yeni prezident seçilib

Azərbaycan Boks Federasiyasının (ABF) hesabat-seçki konfransı keçirilib. Gənclər və İdman Nazirliyinin inzibati binasında təşkil olunan tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Gənclər və idman naziri Fərid Qayıbov tədbirdə çıxış edərək konfransın işinə uğurlar arzulayıb. Azərbaycan Boks Federasiyasının baş katibi Nağı Səfərov federasiyanın son illərdəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib. Daha sonra ABF-nin rəhbərliyinə seçkilər keçirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev səsvermə nəticəsində Azərbaycan Boks Federasiyasının yeni prezidenti seçilib.

Məhərrəm Talıbov və Vüsal Nəsirli federasiyanın vitse-prezidentləri, Fuad Hacıyev və Rövşən Hüseynov isə idarə heyətinin üzvü seçiliblər.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edib.

Azərbaycan Boks Federasiyasının yeni prezidenti Sahil Babayev çıxış edərək göstərilən etimada görə təşəkkürünü bildirib. O, idmanın bu növünün inkişafı üçün əlindən gələni edəcəyini, bunun üçün mütəxəssislərin rəy və təkliflərinin diqqətə alınacağını vurğulayıb.

* * *

Fevralın 12-də Azərbaycan Boks Federasiyasının (ABF) prezidenti Sahil Babayevin sədrliyi ilə qurumun idarə heyətinin ilk iclası keçirilib. Tədbirdə qarşıda duran prioritet məsələlər müzakirə edilib.

Federasiya prezidenti qurumun fəaliyyəti, ölkəmizdə boksun daha da inkişafı üçün konsepsiyanın hazırlanması ilə bağlı tapşırıqlar verib. Sahil Babayev boks idmanın Azərbaycandakı coğrafiyasının genişləndirilməsinin vacibliyini önə çəkib. O vurğulayıb ki, boksun kütləviliyini təmin etmək və maddi-texniki bazanın gücləndirilməsi əsas amillərdən biridir. Federasiya prezidenti məşqçilərə, boksçulara, hakimlərə, həmçinin idmançıların sağlamlığına cavabdeh olan tibb işçilərinə xüsusi diqqətin ayrılması ilə bağlı göstərişlər verib.

Sahil Babayev idarə heyəti ilə bu il keçiriləcək həm ölkədaxili, həm də beynəlxalq yarışlarla bağlı fikir mübadiləsi aparıb. O qeyd edib ki, ilin sonunadək keçiriləcək turnirlərdə Azərbaycana medallar qazandırmaq qısa müddətli plana daxildir. Orta müddətli hədəfin Paris Yay Olimpiya Oyunları olduğunu vurğulayan federasiya prezidenti dördilliyin ən möhtəşəm yarışında fəxri kürsüyə yüksəlməyin əsas məqsəd olduğunu deyib və idarə heyətinə uzunmüddətli planı açıqlayıb. Vurğulanıb ki, hədəf yeni gənc boksçu nəslinin yetişdirilməsi və bu idman növünün hər bir rayonda inkişafına nail olmaqdır. Bunun üçün seçimlər həyata keçirilməli və federasiyada bu məsələlərlə bağlı şöbələr yaradılmalıdır.

ABF-in vitse-prezidenti Vüsal Nəsirli, idarə heyətinin üzvləri Fuad Hacıyev və Rövşən Hüseynov konsepsiya ilə bağlı təkliflərini veriblər.

# Batutçumuz dünya kuboku yarışında gümüş medal qazanıb

***Fevralın 12-13-də paytaxtımızda batut gimnastikası üzrə Dünya kuboku yarışları keçirilib. 13 ölkədən 52 idmançının iştirakı ilə təşkil edilən yarışlar təmsilçimiz Selcan Mahsudovanın tarixi gümüş medalı ilə yadda qalıb. Təsnifat mərhələsini özünəinamlı çıxışı ilə başa vuran Selcan Mahsudova finalda hakimlərdən 52.780 xal toplayaraq gümüş medala sahib çıxıb.***

Qeyd edək ki, bu medal Azərbaycanın batut gimnastikası tarixində qadınlar arasında fərdi növdə qazanılan ilk medaldır.

Qadınlar arasında fərdi növlərdə ilk pillədə Rusiya təmsilçisi İrina Kundius (53.900 xal) qərarlaşıb. İtaliya təmsilçisi Giorgia Giampieri (51.820 xal) isə bürünc medal qazanıb.



Fərdi kişi gimnastların mübarizəsində Belarus təmsilçisi, Tokio-2020 Yay Olimpiya Oyunlarının qalibi İvan Litvinoviç (61.850 xal) bütün rəqiblərini üstələyərək qızıl medala sahib çıxıb. Onun komanda yoldaşı Andrey Buylov (60.800 xal) isə fəxri kürsünün ikinci pilləsində qərarlaşıb. Qazaxıstan idmançısı Dannil Mussabəyov (58.890 xal) bürünc medalla kifayətlənib.

Qadınlar arasında Rusiya təmsilçisi Meri Qolota, kişilər arasında isə Belarus təmsilçisi İvan Litvinoviç icra üzrə ən yüksək xal toplayaraq "AGF Trophy" kubokuna sahib çıxıblar.

Qadınlar arasında sinxron batut proqramı üzrə Türkiyə-1 komandası 44.140 xalla 1-ci, isveçrəli cütlük 42.030 xalla 2-ci, Rusiya-2 komandası isə 32.790 xalla üçüncü pillədə qərarlaşıb.

Kişilər arasında sinxron batut proqramı üzrə Belarus-2 komandası 52.810 xalla 1-ci, Rusiya-1 komandası 50.820 xalla ikinci, Portuqaliya komandası isə 49.960 xalla 3-cü olub.

Budəfəki yarışlarda batut gimnastikası tarixində ilk dəfə olaraq İran və Hindistan komandalarının iştirak etməsi beynəlxalq mütəxəssislər tərəfindən bu növün inkişafı istiqamətindəki uğurlu addımlardan biri kimi dəyərləndirilib.

Dünya kuboku həm də onunla yadda qalıb ki, paytaxtımıza təşrif buyuran idmançılar yarışlarda Beynəlxalq Gimnastika Federasiyasının növbəti Olimpiya dövründəki yeni qaydalarını sınaqdan keçiriblər.

Qeyd edək ki, batut gimnastikası Azərbaycanda 2013-cü ilin sonundan inkişaf etməyə başlayıb. Bu növ üzrə Dünya Kuboku Bakıda artıq beşinci dəfədir ki, təşkil olunur.

Qeyd edək ki, ölkəmizdə pandemiya dövründə təşkil edilmiş digər yarışlar kimi bu çempionat da Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq icazəsi ilə baş tutub.

Bu yarışda da karantin qaydalarına riayət olunması, insanlar arasında ünsiyyətin maksimum azaldılması, eləcə də Beynəlxalq Gimnastika Federasiyasının (FIG) qayda və tövsiyələrinə əməl olunması məqsədilə Yerli Təşkilat Komitəsi tərəfindən bir sıra addımlar atılıb.

# Azərbaycan Qolf Federasiyasına prezident seçkiləri keçirilib

Azərbaycan Qolf Federasiyasının ümumi yığıncağı keçirilib. Azərbaycan Respublikası Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə gənclər və idman naziri Fərid Qayıbov çıxış edərək iştirakçıları salamlayıb, yığıncağın işinə uğurlar arzulayıb.

Sonra Azərbaycan Qolf Federasiyası rəhbərliyinə seçkilər keçirilib. Səsvermə nəticəsində Rauf Xəlilov Azərbaycan Qolf Federasiyasının prezidenti seçilib.

Yığıncaqda, həmçinin Anar Əzimov federasiyanın vitse-prezidenti vəzifəsinə seçilib. Tədbirdə federasiyanın idarə heyətinə də seçkilər keçirilib. Zakir İbrahimov, Kamran Qasımov, Tural Vəlizadə, Nigar Süleymanova və İlqar Rüstəmov idarə heyətinə üzv seçiliblər.

Azərbaycan Qolf Federasiyasının yeni prezidenti Rauf Xəlilov çıxış edərək göstərilən etimada görə yığıncaq iştirakçılarına təşəkkür edib. O, idmanın bu növünün inkişafı üçün görüləcək işlər və qarşıdakı planlardan danışıb.

# Atletika üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyi başa çatıb

***Respublika Olimpiya Mərkəzində atletika üzrə 2007-ci və 2008-ci illər təvəllüdlü idmançılar arasında Azərbaycan birinciliyi keçirilib.***

Yarışın açılış mərasimində Azərbaycan Atletika Federasiyasının baş katibi Məhərrəm Sultanzadə çıxış edərək Prezident İlham Əliyevin idmanın inkişafına göstərdiyi yüksək diqqət və qayğı nəticəsində ölkəmizin dünyada idman dövləti kimi tanındığını deyib. O, Azərbaycanda idmanın digər növləri kimi, atletikanın da sürətlə inkişaf etdiyini bildirib, bu baxımdan belə turnirlərin əhəmiyyətini vurğulayıb. M.Sultanzadə cari ildə Polşa keçiriləcək üçüncü Avropa Oyunlarında Azərbaycan atletlərinin də iştirak edərək medal qazanacaqlarına ümidvar olduğunu bildirib.

Azərbaycan birincliyində atletlərin göstərdikləri nəticələrin gələcəkdə onların beynəlxalq yarışlarda iştirakına imkan yaradacağını deyən federasiyanın baş katibi idmançılara uğurlar arzulayıb.



Gənclər və İdman Nazirliyinin nümayəndəsi Sevda Mirzəyeva Azərbaycan dövlətinin ölkəmizdə idmanın inkişafına diqqət və qayğısından danışıb, çoxsaylı yerli və beynəlxalq turnirlərin təşkil olunduğunu bildirib. O, ölkəmizdə atletikanın kütləviliyinin artırılması baxımından çempionatın önəmini vurğulayıb.

Ümumilikdə 140 idmançının iştirak etdiyi çempionat iki gün davam edib. Yarışda Bakı ilə yanaşı, Gəncə, İsmayıllı, Xızı, Astara, Naftalan, Qusar, Xaçmaz və Bərdədən olan atletlər də mübarizə aparıblar. Birincilikdə atletlər 60, 200, 400, 800 və 1500 metr məsafələrə qaçış, 4x200 metr məsafədə estafet qaçışı, uzunluğa, hündürlüyə və üçtəkanla tullanma, eləcə də nüvəitələmə yarışlarında qüvvələrini sınayıblar. Qaliblər diplom və medallarla təltif olunublar.

# Paytaxtımızın Avropa çempionatına ev sahibliyi etməsi barədə namizədliyi irəli sürülüb

Dünya Güləş Birliyinin (UWW) Büro üzvü Karl-Martin Ditman Bakıya gəlib. UWW Avropanın prezidenti vəzifəsində də çalışan Ditman və ali qurumda fəaliyyət göstərən həmyerlimiz, UWW-nin yarış meneceri Ramil Əhmədov Bakıda güləş yarışlarının keçirilməsi üçün mövcud olan infrastrukturla tanış olublar. UWW rəsmiləri iki idman arenasına və bir neçə hotelə baxış keçiriblər.

Bu il noyabrın 5-6-da Bakıda ilk dəfə yunan-Roma güləşi üzrə dünya kuboku yarışı keçiriləcək. Ditman bu yarışın keçiriləcəyi Bakı İdman Sarayında şəraitlə tanış olub. Burada müxtəlif otaqlar nəzərdən keçirilib və komandaların məşqi üçün uyğun məkan seçilib.

Bakı həmçinin, gələn il Avropa çempionatını keçirməyə namizədliyini irəli sürüb. 2023-cü ilin aprelin 17-dən 23-dək böyüklər arasında təşkil olunacaq qitə birinciliyi üçün digər namizəd isə Xorvatiyanın paytaxtı Zaqrebdir. Daha əvvəl 2010-cu ildə analoji yarış ölkəmizdə keçirilib. Nüfuzlu yarışın təşkili paytaxtımıza həvalə olunsa, Avropanın ən güclü güləşçiləri 13 ildən sonra yenə Heydər Əliyev adına İdman Sarayında müəyyənləşəcək. Ditman nəhəng idman zalı ilə tanış olub. Güləş yarışlarının keçiriləcəyi zalla yanaşı, məşq zalı, püşkatma zalı, çəki mərasiminin keçiriləcəyi məkan, hakimlər otağı, tibb otağı və s. yerlərə baxış keçirilib. UWW rəsmisi komandaların və digər qonaqların qalacaqları hotellərdəki şəraitlə də yaxından tanış olub və bütün bunlarla bağlı qeydlərini aparıb.



Ditman Azərbaycan Güləş Federasiyasının rəsmi saytına açıqlama da verib: "Səhv etmirəmsə, ilk dəfə 2009-cu ildə Bakıda olmuşam. Ölkənizə sonuncu dəfə 2015-ci ildə ilk Avropa Oyunları zamanı səfər etmişəm. Azərbaycanda güləş yüksək səviyyədədir. Burada yarışlar həmişə qüsursuz keçirilib. Ümumiyyətlə, ölkəniz bu idman növündə böyük uğurlara imza atıb. Son illərdə beynəlxalq yarışlarda çoxlu medallar qazanmısınız. Vətənim Almaniyanın yunan-Roma güləşi üzrə yığması da dəfələrlə millinizlə birgə təlim-məşq toplanışı keçib. O ki qaldı yenidən Bakıda beynəlxalq turnirlərin keçirilməsinə, bununla bağlı heç bir problem yoxdur. Paytaxtınızda çox yaxşı hotellər var. Heydər Əliyev adına İdman Sarayında olan şərait isə ən nüfuzlu yarışları keçirməyə imkan verir. Belə böyük arenada güləş üzrə istənilən çempionatı təşkil etmək olar".

## Azərbaycanda badmintonun inkişafı ilə bağlı əməkdaşlıq memorandumu imzalanıb

Azərbaycan Badminton Federasiyası (ABF) və Azərbaycan Banklar Assosiasiyası (ABA) arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumun əsas məqsədi ölkənin bank sektorunda badminton idman növünə marağın artırılması, o cümlədən bu idman növünün inkişafına biznes və maliyyə sektorunun dəstəyinin stimullaşdırılmasıdır.

Tərəflər arasında əldə edilən ilkin razılığa əsasən, yaxın gələcəkdə Azərbaycanda fəaliyyət göstərən bankların həvəskar komandaları arasında badminton yarışı təşkil ediləcək və birgə müxtəlif layihələr həyata keçiriləcək.

Qeyd olunub ki, Azərbaycanda badminton idman növü 1960-cı ildən inkişaf etməyə başlayıb. 1962-ci ildə ilk Bakı çempionatı, 1963-cü ildə isə ilk Azərbaycan çempionatı təşkil olunub. 1974-cü ildə badminton üzrə SSRİ kuboku Bakıda keçirilib. ABF 1997-ci ildən Dünya Badminton Federasiyası (WBF) və Avropa Badminton Konfederasiyasının (BEC) üzvüdür. 2010-cu ildə İranda keçirilən "A" kateqoriyalı ənənəvi Fəcr turnirində kişilərin qoşa yarışında komandamız bürünc medal qazanıb. Milli komandamız 2018-ci ildə Rusiyanın Kazan, 2020-ci ildə isə Fransanın Lievin şəhərində keçirilən komandalararası Avropa çempionatında iştirak edib. 2021-ci ilin sentyabrında Rusiyanın Kazan şəhərində keçirilən birinci MDB Oyunlarında yeniyetmə və gənc badmintonçularımız şəxsi, qoşa, qarışıq-qoşa və komanda yarışında ümumilikdə 1 qızıl, 3 gümüş və 1 bürünc medal qazanıblar.




Tokio-2020 Yay Olimpiya Oyunlarında Azərbaycan tarixdə ilk dəfə badminton növündə təmsil olunub. 2021-ci ilin dekabrında isə ölkə badmintonu tarixində təmsilçimiz Edi Reski Dviçayo ilk dəfə İspaniyanın Huelva şəhərində keçirilən dünya çempionatında iştirak edib. Hazırda Azərbaycan millisi Dünya Badminton Federasiyasının açıqladığı son siyahıda 62-ci sırada qərarlaşıb.

Bildirilib ki, ABA hazırda 26 bank və 2 bank olmayan kredit təşkilatını, eyni zamanda Azərbaycan Kredit Bürosu, "Azericard" MMC və "Millikart" MMC-ni özündə birləşdirən bank sektorunun inkişafına xidmət edən, təcrübə, ideya və təşəbbüslərin müzakirə edildiyi ictimai platformadır.

ABF və ABA arasında yaranan yeni əməkdaşlıq ölkəmizdə badmintonun daha da populyarlaşmasına və bu idman növündə kütləviliyə təkan verəcək.




## Azərbaycan Qran-Prisinin başlanma saatı müəyyənləşib

2022-ci il Formula 1 Azərbaycan Qran-Prisinin başlanma saatı müəyyənləşib. Yarış iyunun 12-də saat 15:00-da başlayacaq.

Bu barədə Beynəlxalq Avtomobil Federasiyasının (FIA) yayımladığı yarış proqramında qeyd olunub.

İyunun 10-da saat 15:00-da və 18:00-da iki sərbəst yürüş təşkil olunacaq.

Növbəti gün, iyunun 11-də saat 15:00-da üçüncü sərbəst yürüş, saat 18:00-da təsnifat mərhələsi olacaq.

Xatırladaq ki, Formula 1-in builki mövsümü rekord sayda - 23 mərhələdən ibarət olacaq. Mövsüm martın 20-də Bəhreyndə başlayacaq, noyabrın 20-də Əbu-Dabi Qran-Prisi ilə yekunlaşacaq.

## Albaniya Avropa çempionatına ev sahibliyi edəcək

Apreldə Bolqarıstanda keçirilməsi nəzərdə tutulan ağırlıqqaldırma üzrə Avropa çempionatına Albaniya ev sahibliyi edəcək. Buna Bolqarıstan milli federasiyasının problemlərlə üzləşməsi və yarışı təşkil edə bilməməsi səbəb olub. Albaniyanın paytaxtı Tiranada keçiriləcək qitə birinciliyi mayın 25-dən iyunun 3-dək davam edəcək. Sonuncu Avropa çempionatına 2021-ci ildə Rusiyanın paytaxtı Moskva şəhəri ev sahibliyi edib.






## Açıq Avropa turniri uğurlu çıxışla yadda qaldı

Bosniya və Herseqovinanın Sarayevo şəhərində cüdo üzrə açıq Avropa turniri keçirilib. 26 ölkədən 321 idmançının iştirak etdiyi yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayıblar.

Komandamız turniri 2 medalla başa vurub. 60 kq çəki dərəcəsində çıxış edən cüdoçularımız Samir Piriyev və komanda yoldaşı Turan Bayramov bütün rəqiblərini məğlub edərək finala yüksəliblər. Həlledici mərhələdə cüdoçularımız üz-üzə gəliblər. Qarşılaşmanı qızıl xal bölümündə ipponla başa vuran Turan Bayramov turnirin qalibi olub. Samir Piriyev isə gümüş medalla kifayətlənib.

Azərbaycan bu nəticə ilə ümumi komanda hesabında 5-ci yerdə qərarlaşıb.

## Taekvondoçularımız Türkiyədə 5 medala sahib çıxıblar




Türkiyənin Antalya şəhərində taekvondo üzrə "Turkish Open" turniri keçirilib. 49 ölkədən 1250 taekvondoçunun mübarizə apardığı yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar.

Yarışda iştirak edən taekvondoçularımız turniri 1 qızıl və 4 bürünc medalla başa vurublar. Komandamıza qızıl medalı Olimpiya, dünya və ikiqat Avropa çempionu Radik İsayev (87 kq) qazandırıb. Fəxri kürsünün ən yüksək pilləsinə qalxan 33 yaşlı idmançımız türkiyəli Ekrem Əli Yılmazı, cənubi koreyalı Ho Yeon Kangı, özbəkistanlı Şokruk Rəcəbovu və rusiyalı Mixail Poduzovu məğlub edərək qızıl medala sahib olub.

Bürünc medalları isə kişilərdən Səyyad Dadaşov (54 kq) və Məhəmməd Məmmədov (80 kq), qadınlardan Patimat Abakarova (53 kq) və Fəridə Əzizova (67 kq) əldə edib.

## Pəhləvanlarımızın Yaşar Doğu xatirə turniri üçün heyəti açıqlanıb

Fevralın 24-27-də İstanbulda güləş üzrə Yaşar Doğu xatirə turniri keçiriləcək. Mövsümün ilk reytinq xarakterli turnirində sərbəst, yunan-Roma və qadın güləşi üzrə Azərbaycan milli komandaları da mübarizə aparacaq.

Yığmalarımızın turnir üçün heyəti açıqlanıb. Turnirin sərbəst güləş yarışlarında ölkəmizi İslam Bazarqanov (61 kq), Əli Rəhimzadə, Əhmədnəbi Qvarzatilov (hər ikisi 65 kq), Gitinoməhəmməd Hacıyev (70 kq), Soslan Tigiyev (74 kq), Hacımurad Ömərov (79 kq), Hacımurad Məhəmmədsəidov (86 kq) və Şamil Zubairov (97 kq) təmsil edəcəklər.

Klassiklərin yarışında isə komandamız İbrahim Nurullayev (55 kq), Eldəniz Əzizli (60 kq), Taleh Məmmədov, Murad Məmmədov (63 kq), Namaz Rüstəmov, Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq), Tuncay Vəzirzadə, Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq), Arif Niftullayev, Murad Lokyayev (hər ikisi 97 kq) və Beka Kandelakidən (130 kq) ibarət heyətlə mübarizə aparacaq.

Qadınların yarışında isə ölkəmiz Türkan Nəsirova (50 kq), Tatyana Varansova (53 kq), Alyona Kolesnik (59 kq) və Elis Manolova (65 kq) ilə təmsil olunacaq.

Qeyd edək ki, dünya çempionatınadək 4 reytinq xarakterli turnir keçiriləcək. Dünya birinciliyi isə sentyabrın 10-18-də Serbiyanın paytaxtı Belqradda təşkil olunacaq.

## Güləş üzrə Azərbaycan çempionatına yekun vurulub

Bakı İdman Sarayında keçirilən güləş üzrə U-20 Azərbaycan çempionatına yekun vurulub. İlk yarış günündə 55, 60, 63, 67, 72, 77 və 82 kiloqram çəki dərəcələrində yer alan yunan-Roma güləşçiləri mübarizə aparıblar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Fəraim Mustafayev (55 kq), Nihat Məmmədli (60 kq), Ziya Babaşov (63 kq), Kənan Abdullazadə (67 kq), Urfan Həsənli (72 kq), Xasay Həsənli (77 kq) və Rauf Əliyev (82 kq) ölkə çempionu adını qazanıblar.

Çempionatının ikinci günündə klassik güləşdə 87, 97 və 130, sərbəst güləşdə isə 57, 61, 65 və 70 kiloqram çəki dərəcələrində pəhləvanlar mübarizə aparıblar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda yunan-Roma güləşçiləri arasında Laçın Vəliyev (87 kq), Hüseyn Hüseynov (97 kq) və Həybulla Qıstarov (130 kq) qızıl medal qazanıblar. Sərbəst güləşçilərin mübarizəsində isə Nurəddin Novruzov (57 kq), Ramik Heybətov (61 kq), Əbülfəz Nəsirov (65 kq) və Məhəmməd-Bəşir Xaniyev (70 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Yarışın sonuncu günündə sərbəst güləş üzrə 74, 79, 86, 92, 97 və 125 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Namus Orucov (74 kq), Soslan Tigiyev (79 kq), Ruslan Çertkoyev (86 kq), Yusif Dursunov (92 kq), Məhəmmədrəsul Mutayev (97 kq) və Azay İsmayılov (125 kq) birinci yeri tutublar.



Ölkə birinciliyi milli komandalara seçim xarakteri daşıyıb.





# Norveç idmançıları Pekin-2022-də rekordları sıralayırlar

## *Medal siyahısında yerdəyişmələr davam edir*

***Pekin-2022 Qış Olimpiya Oyunlarında nəhəng ölkələrin mübarizəsi davam edir. Olimpiadanın başa çatan hər gününün sonunda demək olar ki, liderlik uğrunda mübarizə də dəyişir. Bu baxımdan Norveç və Almaniya komandalarının adlarını xüsusilə qeyd etmək olar. Bu iki ölkənin komandaları digər rəqiblərindən fəqli olaraq medal sıralamasında ilk iki pillədə bir neçə dəfə yer dəyişiblər.***

Norveç komandası bu dəfəki "ağ olimpiada"da bütün qüvvəsini səfərbər etməyə nail olub. Bu ölkənin Pekin-2022-də favorit olacağı proqnozu özünü doğruldur. Skandinaviya təmsilçiləri medalların əyarında və sayında əsas rəqiblərini qabaqlamağa çalışırlar. Yığmanın heyətində üçqat Olimpiya çempionu olan idmançı Marte Olsbyu-Royseland komandasına üç qızıl medal qazandırıb. On kilometr məsafəyə qadınların yürüş izləmələrində qızıl medala sahib çıxıb. Qarışıq estafet yarışında və sprint növündə o bütün rəqiblərini qabaqlayıb. Fərdi yürüşdə isə bürünc medala layiq görülüb. Norveç yığmasının heyətində Olsbidən sonra üç medal qazanan biatlonçu Yohannes Byö yer alıb. On iki qat dünya çempionu Çin paytaxtında qarışıq estafet və sprint yarışlarında Olimpiya çempionu titulunа yiyələnib. Fərdi yürüşdə isə bürünc medalla kifayətlənib.

Almaniya yığması Oyunlarda bu günə qədər 8 qızıl medala layiq görülüb. Olimpiadaya zəif başlasalar da, artıq onların aktivində 15 medal var. Onlar kirşədə 4 qızıl 2 gümüş, skeletonda 2 qızıl 1 gümüş, biatlon, xizək ikinövçülüyündə 1 qızıl, xizəklə tramplindən tullanmada isə 1 gümüş 2 bürünc medala layiq görülüblər.

ABŞ yığması Pekin-2022-də hələki 16 medala layiq görülüblər. Okeanın o tayından gələn "yankilər" ən çox medalı snoubord yarışlarında əldə ediblər. Amerikalılar bu növdə 3 qızıl, 1 gümüş medala yiyələniblər. Onlar fristayılda 1 qızıl, 2 gümüş, 1 bürünc konkisürmədə 1 qızıl, 1 gümüş, 1 bürünc, bobsleydə 1 qızıl, 1 gümüş, konkisürmədə 1 qızıl, dağ xizəyində 1 gümüş, xizək yürüşündə isə 1 bürünc medala sahib çıxıblar.

Niderland təmsilçiləri də yığma komandanın budəfəki olimpiadada yüksək pillələrdə qərarlaşması üçün uğurla çıxış edirlər. Dünənki nəticələrə əsasən "Zanbaqlar ölkəsi" hazırda 12 medalla 4-cü sırada yer alıb. Bu medallardan ən çoxu konkisürmə yarışlarında əldə edilib - 4 qızıl, 3 gümüş, 1 bürünc. Şort-trek növündə də niderlandlı idmançılar ümidləri doğruldublar. Onlar bu idman növündə 2 qızıl, 1 gümüş medal əldə ediblər. Avropa təmsilçiləri skeleton yarışlarında isə 1 bürünc medala sahib çıxıblar. Avstriya yığması siyahıda irəliləyib. 15 medal (5 qızıl, 6 gümüş, 4 bürünc) əldə edən avstriyalılar ilk 5-likdə yer alıblar.

Pekin-2022-də Skandinaviya yarımadasını uğurla təmsil edən digər ölkələrdən biri də İsveç komandasıdır. Bu ölkənin təmsilçiləri "ağ olimpiada"da hələki 11 medal qazanıblar. Olimpiya oyunları çərçivəsində keçirilən konkisürmə yarışlarında isveçlilər 2 qızıl medal qazanıblar. Xizək yürüşündə isveçlilərin bir dəst medalı var.

Onlar fristayıldа 1 qızıl, 1 gümüş, dağ xizəyində 1 qızıl, biatlonda isə 2 gümüş medala layiq görülüblər.

Olimpiadanın ilk günlərində liderliyi ələ alan şimal qonşularımız isə hazırda 8-ci sıradadır. Rusiya Olimpiya Komitəsini təmsil edən komanda 8-ci sırada olmasına baxmayaraq, medalların sayına görə yalnız lider Norveçdən geri qalır. Belə ki, rusiyalıların aktivində hazırda 18 medal var. Bu yığma komandanın üzvləri ən çox medalı xizək yarışlarında qazanıblar. Onlar bu növdə 3 qızıl, 3 gümüş və 1 bürünc olmaqla 7 medal əldə ediblər.

Rusiyalı idmançılar fiqurlu konkisürmədə 1 qızıl və 1 gümüş medalın sahibidirlər. Şort-trekdə 1 gümüş, 1 bürünc, tramplindən xizəklə tullanmada 1 gümüş, biatlonda 2 bürünc, konkisürmə, kirşə, snoubord və fristaylda 1 bürünc əldə edən ROK komandası yenidən ilk üçlüyə daxil olmaq üçün mübarizəni davam etdirir.

Olimpiada sona yaxınlaşdıqca medal qazanan ölkələrin sayında da artım hiss olunur. Belə ki, İspaniya, Belçika, Belarus və Slovakiya kimi ölkələr də Pekin-2022-də medal qazanan komandaların siyahısına daxil olublar.

Həmin komandaların heyətində iştirak edən idmançılar müxtəlif əyarlı medallarla siyahıda yer alıblar.

### Pekin-2022 Qış Olimpiya Oyunlarında medal qazanan idmançılar:

**7 fevral**

*Şort-trek, 1000 m (Kişilər)*
1. Çzıvey Jen (Çin)
2. Venlun Li (Çin)
3. Şaoan Lyu (Macarıstan)



*Şort-trek, 500 m (Qadınlar)*
1. Arianna Fontana (İtaliya)
2. Syuzanne Shyultinq (Niderland)
3. Kim Buten (Kanada)

**8 fevral**

*Biatlon, fərdi yürüş 20 km (kişilər)*
1. Maye Kenten Fiyon (Fransa)
2. Anton Smolskiy (Belarus)
3. Yohannes Byö (Norveç)

*Dağ xizəyi, super nəhəng (kişilər)*
1. Mattias Mayer (Avstriya)
2. Rayan Kokren-Siql (ABŞ)
3. Aleksandr Kilde (Norveç)



*Kerlinq, qarışıq*
1. İtaliya
2. Norveç
3. İsveç

*Konkisürmə, 1500 m (Kişilər)*
1. Kyeld Neys (Niderland)
2. Tomas Krol (Niderland)
3. Kim Min-Sok (C.Koreya)

*Xizək, sprint, sərbəst üsul (Qadınlar)*
1. Yohanna Sundlinq (İsveç)
2. Maya Dalkvist (İsveç)
3. Cessika Diqqins (ABŞ)

*Xizək, sprint, sərbəst üsul (Kişilər)*
1. Yohannes Klebo (Norveç)
2. Federiko Pelleqrino (İtaliya)
3. Aleksandr Terentyev (ROK)



*Kirşə, təknəfərlik (Qadınlar)*
1. Natalya Hayzenberger (Almaniya)
2. Anna Berrayter (Almaniya)
3. Tatyana İvanova (ROK)



*Snoubord, paralel nəhəng slalom (Qadınlar)*
1. Ester Ledeçkaya (Çexiya)
2. Daniella Ulbinq (Avstriya)
3. Qloriya Kotnik (Sloveniya)

*Snoubord, paralel nəhəng slalom (Kişilər)*
1. Benjamin Karl (Avstriya)
2. Tim Mastnak (Sloveniya)
3. Vik Uayld (ROK)

*Fristayl, biq-eyr (Qadınlar)*
1. Aylin Eylin Qu (Çin)
2. Tess Ledyö (Fransa)
3. Matilda Qremo (İsveçrə)

*(ardı 5-ci səhifədə)*

## Pekin-2022: Olimpiadada yaddaqalan hadisələr

### İran komandasının bayraqdarında dopinq aşkarlandı

İranın dağ xizəkçisi Hüseyn Save-Şəmşəkinin Pekin-2022 Qış Olimpiya Oyunlarında dopinq testi müsbət nəticə verib. Bu barədə Beynəlxalq Dopinq Test Agentliyinin (İTA) mətbuat xidməti məlumat yayıb.

Məlumatda bildirilir ki, idmançıdan fevralın 7-də dopinq testi götürülüb. İdmançı Ümumdünya Antidopinq Agentliyinin (WADA) məcəlləsinə uyğun olaraq yekun qəraradək Pekin Olimpiadasında iştirakdan müvəqqəti olaraq kənarlaşdırılıb. İran təmsilçisi bununla bağlı İdman Arbitraj Məhkəməsinə (CAS) şikayət edə bilər.

Otuz altı yaşlı Save-Şəmşəki Pekin Olimpiadasının açılış mərasimində dağ xizəkçisi Atefa Əhmədi ilə birlikdə İran komandasının bayraqdarı olub. O, 2014-cü ildə Soçidə keçirilən olimpiadanın açılış mərasimində də İran komandasının bayraqdarı vəzifəsini icra edib.

### Rusiyalı xizəkçidən olimpiadada tarixi nəticə

Rusiyalı xizəkçi Veronika Stepanova Qış Olimpiya Oyunlarının tarixinə düşüb.21 yaşlı idmançı buna Rusiya komandasının tərkibində estafet yarışında qızıl medal qazanmaqla nail olub. V.Stepanova bu növdə ən gənc yaşda Olimpiya çempionu olan idmançı adına sahib çıxıb. O, 21 yaş 39-cu gündə uğura yiyələnib.Xizəkçi 1998-ci ildəki olimpiadada 21 yaş 60 günündə qızıl medal qazanmış həmyerlisi Yuliya Çepalovanın rekordunu qırıb.

### Çexiya üçün tarixi uğur

Çexiyada konkisürmə idmanının əfsanəsi sayılan Martina Sablikova Pekində keçirilən Qış Olimpiya Oyunlarında 5 kilometr məsafəyə yürüşdə ikinci Olimpiya medalı qazanaraq müəyyən mənada rekord nəticə göstərib. M.Sablikova bu məsafəni 6 dəqiqə 50 saniyəyə qət edib. Üçqat Olimpiya çempionu, klassik çoxnövçülükdə beşqat dünya çempionu (2009, 2010, 2015, 2016, 2019), ayrı-ayrı məsafələrdə 16 qat dünya çempionu, klassik çoxnövçülükdə beşqat Avropa çempionu, 3000/5000 metr məsafələrdə 11 dəfə dünya kubokunun sahibi, iki məsafəyə qaçış üzrə dünya rekordçusu Martina Sablikova konkisürmə idmanı tarixində ən çox titul qazanmış qadınlardan biridir. İndi o, ardıcıl olaraq dörd Olimpiadada medallar qazanmış yeganə Çexiya nümayəndəsidir. Bu, Çexiya idmanı üçün özünəməxsus rekorddur.

### Asiyalı idmançı yeni Olimpiya rekordunu müəyyənləşdirib

Çinli konkisürən Qao Tinyoy Pekin-2022 Qış Olimpiya Oyunlarında 500 metr məsafə üzrə yarışda qızıl medal qazanıb. Asiya təmsilçisi bu məsafəni 34,32 saniyəyə qət edərək yeni Olimpiya rekordu müəyyənləşdirib. Bundan əvvəlki nailiyyət norveçli Hovar Lorentsenə (34,41) məxsus olub və 2018-ci ildə Pxençxanda keçirilən Olimpiya Oyunlarında müəyyənləşdirilib. İkinci yeri cənubi koreyalı Ça Min Kyo (34,39), üçüncü yeri isə yaponiyalı Vataru Morişige (34,49) tutublar.





(əvvəli 4-cü səhifədə)

9 fevral

*Dağ xizəyi, slalom (Qadınlar)*
1. Petra Vloqova (Slovakiya)
2. Katarina Linsberger (Avstriya)
3. Vendi Holdener (İsveçrə)

*Xizək ikinövçülüyü, orta tramplin*
1. Finçenç Geyger (Almaniya)
2. Yorqen Qrobak (Norveç)
3. Lukas Qrayderer (Avstriya)

*Kirşə, ikinəfərlik (kişilər)*
1. Arlt Tobias, Vendl Tobias (Almaniya)
2. Saşa Benekken, Toni Eqqert (Almaniya)
3. Lorens Koller, Tomas Şteu (Avstriya)

*Fiqurlu konkisürmə (Kişilər)*
1. Neytan Çen (ABŞ)
2. Yuma Kaqiyama (Yaponiya)
3. Şoma Uno (Yaponiya)

*Fristayl, akrobatika, komanda*
1. ABŞ
2. Çin
3. Kanada

11 fevral

*Biatlon, sprint, 7,5 km (Qadınlar)*
1. Marte Royseland (Norveç)
2. Elvira Eberq (İsveç)
3. Daroteya Virer (İtaliya)

*Tramplindən tullanma, böyük tramplin, fərdi birincilik (Kişilər)*
1. Marius Lindvik (Norveç)
2. Reyu Kobayaşi (Yaponiya)
3. Karl Geyger (Almaniya)

*Skeleton (Qadınlar)*
1. Hanna Neys (Almaniya)
2. Jaklin Narrakott (Avstraliya)
3. Kimberli Bos (Niderland)

*Snoubord, snoubord-kross, komanda*
1. Nik Baumqartner, Lindsey Ceykobellis (ABŞ)
2. Omar Vizintin, Mikela Moyoli (İtaliya)
3. Eliyot Qrondin, Merieta Odin (Kanada)

# Norveç idmançıları Pekin-2022-də rekordları sıralayırlar

## *Medal siyahısında yerdəyişmələr davam edir*

*Snoubord, snoubord-kross (Qadınlar)*
1. Lindsey Ceykobellis (ABŞ)
2. Hloya Trespeş (Fransa)
3. Merieta Odin (Kanada)

*Fristayl, biq-eyr (Kişilər)*
1. Birk Ruud (Norveç)
2. Kolbi Stivenson (ABŞ)
3. Henrik Harlaut (İsveç)

*Şort-trek, 1500 m (Kişilər)*
1. Hvan De-Hon (C.Koreya)
2. Stiven Dyubua (Kanada)
3. Semyon Elistratov (ROK)

10 fevral

*Dağ xizəyi kombinasiyası (Kişilər)*
1. Yohannes Strols (Avstriya)
2. Aleksandr Kilde (Norveç)
3. Ceyms Krouford (Kanada)

*Konkisürmə, 5000 metr (Qadınlar)*
1. İren Sxauten (Niderland)
2. İzabell Vaydemann (Kanada)
3. Martina Sablikova (Çexiya)

*Xizək, ayrı startlı yürüş, klassik üsul (Qadınlar)*
1. Tereza Yoxauq (Norveç)
2. Kerttu Niskanen (Finlandiya)
3. Krista Parmakoski (Finlandiya)

*Kirşə, komanda estafeti*
1. Almaniya
2. Avstriya
3. Latviya

*Snoubord, snoubord-kross (Kişilər)*
1. Alessandro Hammerle (Avstriya)
2. Eliot Qrondin (Kanada)
3. Omar Vizintin (İtaliya)

*Snoubord, hafpayp (Qadınlar)*
1. Hloya Kim (ABŞ)
2. Keralt Kastelet (İspaniya)
3. Sena Tomita (Yaponiya)

*Dağ xizəyi, super nəhəng (Qadınlar)*
1. Lara Qut-Behrami (İsveçrə)
2. Miryam Puxner (Avstriya)
3. Mişel Qizin (İsveçrə)

*Konkisürmə, 10000 m (Kişilər)*
1. Van Der Pul Nils (İsveç)
2. Patrik Rust (Niderland)
3. David Qotto (İtaliya)

*Xizək, ayrı startlı yürüş, klassik üsul (Kişilər)*
1. İyvo Niskanen (Finlandiya)
2. Aleksandr Bolşunov (ROK)
3. Yohannes Klebo (Norveç)

*Skeleton (Kişilər)*
1. Kristofer Qrotter (Almaniya)
2. Aksel Yunq (Almaniya)
3. Venqan Yan (Çin)

*Snoubord, hafpayp (Kişilər)*
1. Ayumu Hirano (Yaponiya)
2. Skotti Ceyms (Avstraliya)
3. Yan Şerrer (İsveçrə)

*Şort-trek, 1000 m (Qadınlar)*
1. Syuzanne Sxyultinq (Niderland)
2. Çxoy Min-Yon (Cənubi Koreya)
3. Anne Desmet (Almaniya)

12 fevral

*Biatlon, sprint, 10 km (Kişilər)*
1. Yohannes Byö (Norveç)
2. Maye-Kenten Fiyon (Fransa)
3. Tarey Byö (Norveç)

*Konkisürmə, 500 m (Kişilər)*
1. Tinyuy Qao (Çin)
2. Çxa Min-Kyu (Cənubi Koreya)
3. Vataru Morisiqe (Yaponiya)

*Xizək, estafet 4x5, klassik və sərbəst üsul (Qadınlar)*
1. Rok
2. Almaniya
3. İsveç

13 fevral

*Biatlon, yürüş izləmələr, 10 km (Qadınlar)*
1. Marte Royseland (Norveç)
2. Elvira Eberq (İsveç)
3. Tiril Ekhoff (Norveç)

*Biatlon, yürüş izləmələri, 12.5 km (Kişilər)*
1. Maye-Kenten Fiyon (Fransa)
2. Tarey Byö (Norveç)
3. Eduard Latıpov (ROK)

*Dağ xizəyi, nəhəng slalom (Kişilər)*
1. Marko Odermatt (İsveçrə)
2. Jan Kraneç (Sloveniya)
3. Mate Fyovr (Fransa)

*Konkisürmə, 500 m (Qadınlar)*
1. Erin Cekson (ABŞ)
2. Miho Takaqi (Yaponiya)
3. Angelina Qolikova (ROK)

*Xizək, estafet 4x10, klassik və sərbəst üsul (Kişilər)*
1. ROK
2. Norveç
3. Fransa

*Şort-trek, 3000 m estafet (Qadınlar)*
1. Niderland
2. Cənubi Koreya
3. Çin

*Şort-trek, 500 m (Kişilər)*
1. Şaoan Lyu (Macarıstan)
2. Konstanten İvliev (ROK)
3. Stiven Dübua (Kanada)

14 fevral

*Bobsley, monobob (Qadınlar)*
1. Kayli Hampfris (ABŞ)
2. İlana Meyers (ABŞ)
3. Kristi De Brüyin (Kanada)

*Fiqurlu konkisürmə, rəqs*
1. Qabriella Papadakis, Qiyom Sizeron (Fransa)
2. Nikita Kaçalapov, Viktoriya Siniçina (ROK)
3. Zahari Donohyu, Medison Habbell (ABŞ)

## Pekin-2022: Olimpiadada yaddaqalan hadisələr

### Mükafatlandırma mərasimi ləğv edildi

Pekin-2022 Qış Olimpiya Oyunlarının fiqurlu konkisürmə üzrə komanda yarışlarının mükafatlandırma mərasimi ləğv edilib.



Bu barədə qərarı Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi verib. Buna Kamila Valiyeva ilə bağlı insident səbəb olub. Rusiyalı idmançının ötən ilin dekabrında verdiyi dopinq testinin müsbət nəticə verdiyi üzə çıxmışdı. Buna görə də komanda yarışlarında Rusiya 1-ci, ABŞ 2-ci, Yaponiya 3-cü yeri tutsa da, fevralın 7-də keçirilməli olan mükafatlandırma mərasimi qeyri-müəyyən müddətə təxirə salınmışdı.

İdman Arbitraj Məhkəməsi (CAS) K.Valiyevanı fərdi yarışlara buraxılması barədə qərar verib. Buna baxmayaraq, idmançı ilə bağlı araşdırma davam edir. Medalların taleyinə də bundan sonra aydınlıq gələcək və yalnız yekun qərardan sonra mükafatlandırma mərasimi keçiriləcək.

### Finlandiyalı xizəkçi üçqat Olimpiya çempionu adını qazandı

Finlandiyalı xizəkçi İyvo Niskanen üçqat Olimpiya çempionu olub. 30 yaşlı idmançı Pekin-2022 Qış Olimpiya Oyunlarında kişilər arasında 15 kilometr məsafəyə klassik üsulla yarışda birinci olub. Atlet məsafəni 37 dəqiqə 54,8 saniyəyə qət edib. İlk üçlüyü Rusiya Olimpiya Komitəsinin üzvü Aleksandr Bolşunov və Norveç təmsilçisi Yohannes Klebo tamamlayıblar. İ.Niskansen Soçi-2014-də sprint, Pxençxan-2018-də isə 50 kilometr məsafəyə xizəkçilik yarışında qızıl medal qazanıb. Üçqat Olimpiya çempionu Pekin-2022-də ölkəsinə ilk qızıl medalı qazandırıb.

### Fransalı cütlük 3 ildən sonra dünya rekordunu qırdı

Pekin-2022 Qış Olimpiya Oyunlarında yeni dünya rekordu qeydə alınıb. Fransalı fiqurlu konkisürənlərdən ibarət Qabriella Papadakis - Giyom Sizeron dueti buz üzərində rəqsdə 226,98 xala layiq görülərək qızıl medal əldə ediblər. Əvvəlki dünya rekordu da bu cütlüyə məxsus olub. Konkisürənlər 2019-cu il Yaponiya Qran-prisində 226,61 xal qazanmışdı. Qeyd edək ki, daha əvvəl Papadakis - Sizeron dueti ritm rəqsində də 90,83 xalla dünya rekordu müəyyənləşdirib.

# Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarında yadda qalan məqamlar
























# FUTBOL

## Azərbaycan Kubokunun bütün yarımfinalçıları müəyyənləşib



Futbol üzrə Azərbaycan Kubokunda 1/4 final mərhələsinin cavab oyunları keçirilib. İlk oyun günündə cəmi bir görüş təşkil olunub. Günün yeganə matçında “Qarabağ” “Keşlə”nin qonağı olub. İlk oyunda 1:0 hesablı qələbə qazanan Ağdam klubu cavab qarşılaşmasında rəqibini darmadağın edib - 6:0. Matçda hesabı 9-cu dəqiqədə Patrik Andrade açıb. Kabo-verdeli yarımmüdafiəçi qüvvətli zərbə ilə baxımlı qola imza atıb. Cəmi 8 dəqiqə sonra İbrahima Vadji paytaxt təmsilçisini növbəti dəfə meydanın mərkəzinə dəvət edib. 43-cü dəqiqədə Ramil Şeydayev hesab arasındakı fərqi 3 topa çatdırıb. 2 dəqiqə sonra isə Vadji dublunu rəsmiləşdirib. Oyunda növbəti qol 78-ci dəqiqədə vurulub. Matçda son nöqtəni isə R.Şeydayev qoyub. 84-cü dəqiqədə fərqlənən hücumçu yekun hesabı müəyyənləşdirib.





Beləliklə, iki oyunun nəticəsinə əsasən, “Qarabağ” adını yarımfinala yazdırıb.

1/4 final mərhələsinin digər oyununda “Neftçi” “Sabah”ın qonağı olub. Masazırdakı “Bank Respublika Arena”da oynanılan qarşılaşma “ağ-qaralar”ın 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Görüşdə hesabı meydan sahibləri açıblar. 41-ci dəqiqədə Xuan Kamara fərqlənib. İlk hissə bu hesabla bitib. İkinci yarıda “Neftçi” rəqibin səhvlərindən istifadə edərək ardıcıl iki qol vurub. 61-ci dəqiqədə kapitan Emin Mahmudov, bir dəqiqə sonra isə Roman Maçado “Sabah”ı mərkəzə dəvət edib. 31 yaşlı braziliyalı hücumçu 68-ci dəqiqədə özünün ikinci, komandasının üçüncü qoluna imza atıb.

İlk matç 1:1 hesabı ilə bitdiyi üçün “Neftçi” yarımfinala adlayıb.

Futbol üzrə Azərbaycan Kubokunda 1/4 final mərhələsinin daha bir cavab görüşü keçirilib. “Qəbələ” dogma meydanda “Sumqayıt”la qarşılaşıb. Oyun 1:1 hesabı ilə yekunlaşıb. Matdçda ilk qolu meydan sahibləri vurublar. 18-ci dəqiqədə İsnik Alimi adını tabloya yazdırıb. Qonaqların bərabərlik qoluna isə yeni transfer Araz Abdullayev imza atıb. 82-ci dəqiqədə penaltidən fərqlənən 30 yaşlı yarımmüdafiəçi Azərbaycana qayıdışını qolla qeyd edib.

İlk oyunda 1:0 hesablı qələbə qazanmış “Qəbələ” doğma meydandakı heç-heçədən sonra yarımfinala adlayıb.

Azərbaycan Kubokunda 1/4 final mərhələsinin sonuncu cavab oyunu “Zirə” və “Səbail” komandaları arasında təşkil olunub. Bununla da yarımfinalın bütün iştirakçıları müəyənləşib. “ASCO Arena”dakı qarşılaşma “qartallar”ın inamlı qələbəsi ilə başa çatıb - 3:1. Görüşdə hesabı 7-ci dəqiqədə meydan sahibləri açıblar. Ruslan Hacıyev uzaq məsafədən baxımlı qola imza atıb. 21-ci dəqiqədə Ağabala Ramazanov tarazlığı bərpa edib. 39-cu dəqiqədə Təmkin Xəlilzadə penaltidən fərqlənməklə qonaqları önə keçirib. Oyunda son nöqtəni isə Coşqun Diniyev qoyub. Azərbaycan millisinin yarımmüdafiəçisi 73-cü dəqiqədə əla zərbə ilə yekun hesabı müəyyənləşdirib.

Beləliklə, ilk görüşdə 4:0 hesablı qələbə qazanmış “Zirə” iki oyunun nəticəsinə əsasən, adını yarımfinala yazdırıb. Rəşad Sadıqovun baş məşqçi olduğu komanda finala gedən yolda “Neftçi” ilə qarşılaşacaq. Digər yarımfinal cütündə isə “Qəbələ” və “Qarabağ” komandaları üz-üzə gələcəklər. İlk oyunlar aprelin 20-də, cavab matçları isə aprelin 29-da təşkil olunacaq.

### *“Qarabağ” yeni reytinq siyahısında 88-ci pillədə qərarlaşıb*

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) Avropa klublarının yeni reytinq siyahısını açıqlayıb. 112 komandanın yer aldığı cədvəldə Azərbaycan təmsilçisi “Qarabağ” da var. Ağdam təmsilçisi 85,6 xalla 88-ci pillədə qərarlaşıb.

Niderlandın “Ayaks” klubu 292 xalla qitənin ən reytinqli klubudur. İngiltərə təmsilçiləri “Çelsi” (287 xal) və “Mançester Siti” (286) ilk üçlükdə yer alıblar.

## Premyer Liqada növbəti turun cədvəli açıqlanıb

Futbol üzrə Azərbaycan Premyer Liqasında XVI turun oyun cədvəli açıqlanıb. Turun üç qarşılaşması iki günü əhatə edəcək. Turun “Qarabağ” - “Sumqayıt” oyunu isə təxirə salınıb. Ağdam klubu UEFA Konfrans Liqasının pley-offunda Fransanın “Marsel” klubu ilə görüşlərə daha yaxşı hazırlaşmaq məqsədi ilə Peşəkar Futbol Liqasına (PFL) müraciət edib. PFL “köhlən atlar”ın ölkə idmanı üçün vacib olan matçlara daha yaxşı hazırlaşmasını nəzərə alaraq və “Sumqayıt” klubunun razılığını rəhbər tutaraq qarşılaşmanın mayın 12-də oynanılması ilə bağlı qərar çıxarıb. Qeyd edək ki, “Qarabağ” “Marsel”ə qarşı ilk oyununu fevralın 17-də səfərdə, cavab matçını isə fevralın 24-də Bakıda keçirəcək.

*Azərbaycan Premyer Liqası*
*XVI tur*

19 fevral (şənbə)
15:00. “Qəbələ” - “Səbail”
Qəbələ şəhər stadionu
17:15. “Neftçi” - “Keşlə”
“Bakcell Arena”
20 fevral (bazar)
17:00. “Zirə” - “Sabah”
Zirə İdman Kompleksinin stadionu

## “Zadəganlar” klublararası dünya çempionatının qalibi olub




Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə keçirilən futbol üzrə klublararası dünya çempionatının qalibi müəyyənləşib. Bu İngiltərənin “Çelsi” klubudur. London təmsilçisi həlledici görüşdə Braziliyanın “Palmeyras” komandasını məğlub edib.

Görüşdə hesabı “Çelsi” klubu matçın 55-ci dəqiqəsində açıb. Romelu Lukaku fərqlənib. Doqquz dəqiqə sonra “Palmeyras” klubu hesaba tarazlıq gətirib. Hakimin təyin etdiyi penaltini Rafael Veiga dəqiq yerinə yetirib. Qalan dəqiqələrdə hər iki komandanın cəhdlərinə baxmayaraq hesab dəyişilməyib.

Qalibi müəyyənləşdirmək üçün hər biri 15 dəqiqədən ibarət iki əlavə vaxt oynanılıb.

İkinci əlavə vaxtın sonuna yaxın (117-ci dəqiqə) Kay Havertz 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirərək komandasının vacib qoluna imza atıb. Beləliklə, “Çelsi” klubu tarixində ilk dəfə klublararası dünya çempionatının qalibi olub.

Turnirin üçüncü yer uğrunda matçında isə “Əl-Hilal” klubu “Əl-Əhli” komandasına böyük hesabla məğlub olub - 4:0.

Qeyd edək ki, Klublararası dünya çempionatının ötənilki qalibi Almaniyanın “Bavariya” komandası olub.

### *Zlatan ilk üçlükdən kənarda qaldı*

Karyerasını davam etdirənlər arasında XXI əsrdə ən çox oyun keçirən futbolçular açıqlanıb. Siyahıya İngiltərənin “Mançester Yunayted” klubunun futbolçusu Kriştianu Ronaldo başçılıq edir. 37 yaşlı hücumçu XXI əsrdə 1104 matça çıxıb. İkinci sırada İspaniyanın “Barselona” klubundan Daniel Alveş (1000) qərarlaşıb. Fransanın PSJ komandasının hücumçusu Lionel Messi (955) üçüncü, İtaliyanın “Milan” klubunun futbolçusu Zlatan İbrahimoviç (939) dördüncü yerdədir.

### *Afrikalı futbolçunun adı stadiona veriləcək*

Seneqalda futbol stadionuna ölkənin milli komandasının və “Liverpul”un üzvü Sadio Manenin adı veriləcək. Bunu Seneqalın Sediu şəhərinin meri Abdulay Diop açıqlayıb. O bildirib ki, Manenin doğma şəhərində inşa olunan yeni arena futbolçunun adını daşıyacaq. Bu stadionun açılışı 2023-cü ildə olacaq.

Qeyd edək ki, Seneqal millisi ötən həftə tarixində ilk dəfə Afrika çempionu olub.

# Dünya idmanı





## "Red Bull" yeni bolidini ictimaiyyətə təqdim etdi

Qarşıdakı mövsümə hazırlaşan "Red Bull" komandası dünya çempionatı ərəfəsində yeni bolidini ictimaiyyətə təqdim edib. Avstriya komandası indiki məqamda bolidin bütün keyfiyyətlərini nümayiş etdirməkdən boyun qaçırıb. Komanda RB18 adlı yeni bolidinin yalnız şəkillərini paylaşıb.

Yeni mövsümdən tətbiq olunacaq texniki reqlamentə əsasən, komandaların yarış maşınlarında bəzi dəyişikliklər olacaq. Bu mənada "Red Bull" da yeni qaydalara uyğun bolid hazırlayıb. Xatırladaq ki, növbəti mövsümdə də son dünya çempionu Maks Ferstappen və meksikalı pilot Serxio Peres "qırmızı öküzlər"in "sükan arxası"nda əyləşəcək.

Qeyd edək ki, Formula 1 üzrə dünya çempionatında çıxış edən "Red Bull" yeni sponsorla anlaşıb. Nüfuzlu "Assoşieyted Press" agentliyinin məlumatına görə, ABŞ-ın "Oracle" şirkəti ilə beşillik müqavilə imzalayan Avstriya təmsilçisi bu müddət ərzində 500 milyon dollar qazanacaq. Bununla yanaşı, şirkətin adı komandanın rəsmi adına əlavə ediləcək.

## Lebron Ceymsdən növbəti rekord

"Lakers"in ulduz hücumçusu Lebron Ceyms müntəzəm mövsümdə və pley-offda karyerası ərzində ən çox xal toplayan NBA basketbolçusu olub.

O, "Lakers"in "Golden State" ilə səfər oyununda üçüncü hissədə uzaqdan atış ilə karyerasındakı 44 152-ci xalını toplayaraq adını idman tarixinə yazdırıb.

37 yaşlı Lebron 266 oyunda 7631 xalla pley-offun ən sərrast oyunçuları siyahısına başçılıq edir. Lakin müntəzəm çempionatın xallar cədvəlində hələ ki, üçüncü yerdə qərarlaşıb.

olimpnews.az - sizin saytınız




## "Uembli" boks qarşılaşmasına ev sahibliyi edəcək

Dünya Boks Şurasının (WBC) ağır çəkidə çempionu britaniyalı Tayson Fyuri növbəti döyüşünü aprelin 23-də həmyerlisi Dillian Uayta qarşı Londondakı "Uembli" stadionunda keçirə bilər. T.Fyuri sonuncu dəfə 2021-ci il oktyabrın 9-da Las-Veqasda amerikalı Deontey Uayldərlə qarşılaşıb və 11-ci raundda nokautla qalib gəlib.



Otuz üç yaşlı Fyurinin aktivində 31 qələbə və bir heç-heçə var. Onunla həmyaşıd olan Uayt isə karyerası ərzində 28 qələbə qazanıb, iki dəfə məğlub olub.

## Pişiyi təpikləyən futbolçu məhkəməyə verildi

İngiltərənin "Vest Hem" klubunun futbolçusu Kurt Zuma ölkəsi Fransada məhkəməyə verilib. Buna 28 yaşlı müdafiəçinin pişiyi təpikləməsi səbəb olub.

Məhkəməyə müraciət edənlər heyvanların hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış "La Fondation 30 Millions d Amis" (30 milyon Dostlar Fondu) təşkilatının hüquqşünaslarıdır.



2021-ci ildə Fransada heyvan hüquqları ilə bağlı yeni qanunlar qəbul edilib. Pişiyə qarşı vəhşiliyə görə oyunçunu 4 ilə qədər həbs cəzası və 60 000 avro cərimə gözləyir.

Fransa qanunları vətəndaşı xaricdə törətdiyi cinayətə görə mühakimə etməyə imkan verir.

Qeyd edək ki, Kurt Zuma cari mövsüm Premyer Liqada 12 oyuna çıxıb və 1 qol vurub. Onun sözləşməsi 2025-ci ildə başa çatacaq.

## Azarkeş "Palmeyras"ın məğlubiyyətinin qurbanı oldu



İngiltərənin "Çelsi" və Braziliyanın "Palmeyras" komandaları arasında klublararası dünya çempionatının final oyunu zamanı azarkeş güllələnib.

Hadisə San-Pauluda baş verib. Cənubi Amerika təmsilçisinin fanatları Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu Dabidə keçirilmiş qarşılaşmanı komandalarının ev matçlarını oynadığı "Alyans Park" stadionunun yaxınlığında quraşdırılmış böyük monitordan izləyiblər.

Bu zaman tərəfdarlar arasında kütləvi iğtişaş olub və nəticədə bir nəfər güllələnərək öldürülüb. Hadisəni törətməkdə şübhəli bilinən şəxs həbs edilib.

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19